# Füzuli regionun gözəl şəhərlərindən birinə çevriləcək

**Şərəfimizi, qürurumuzu ucaldan və bizi qalib xalq kimi tanıdan tarixi qələbədən sonra işğaldan azad edilən ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri Azərbaycanın əzminin, iradəsinin, gələcək baxışlarının dönməzliyini, eyni zamanda hərbi, iqtisadi və maliyyə gücünü bütün dünyaya nümayiş etdirir. May ayının əvvəlindən on gün Qarabağda və Şərqi Zəngəzurda səfərdə olan dövlətimizin başçısı bir sıra vacib infrastruktur obyektlərin açılış, bir çox layihələrin isə icra edilməsi üçün təməlqoyma mərasimlərində iştirak edib.**

İki il yarımdır ki, Prezident, Qalib Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən ərazilərə mütəmadi səfərlər edir, aparılan quruculuq işlərinin gedişi ilə tanış olur, tövsiyə və tapşırıqlarını verir. Eyni zamanda işğal dövründə Ermənistanın bu torpaqlarda törətdiyi vəhşiliyi, vandallığı, cinayətləri və azərbaycanlılara qarşı qəddarlığını təkzibedilməz faktlarla dünyaya, beynəlxalq təşkilatlara və erməni havadarlarına çatdırır, işğalçı, faşist erməni mahiyyətinin iç üzünü ifşa edir. İşğaldan azad edilən torpaqların, şəhərlərin və kəndlərin dirçəldilməsi üçün çox mühüm sənədləri imzalayan dövlət başçısı həm də bu ərazilərdə çox böyük infrastruktur layihələrin həyata keçirilməsi üçün strateji fəaliyyət planını təsdiq edib və bölgədə bütün işlər, həyata keçirilən layihələr həmin plan əsasında aparılır. Təsadüfi deyil ki, dünyanın ən böyük şirkətləri işğaldan azad edilən ərazilərdə quruculuq işlərində iştirak etməyə həvəs göstərir və onlardan bir çoxu artıq Qarabağda və Şərqi Zəngəzurda fəaliyyətə başlayıb. Qarabağda və Şərqi Zəngəzurda erməni işğalından azad edilən ərazilərdə bərpa-quruculuq işlərinə başlanılanda dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu işləri heç kimdən asılı olmayaraq, öz vəsaiti hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən görür. Biz həmişə bir arzu ilə, bir fikirlə yaşamışdıq ki, gün gələcək, ədaləti bərpa edəcəyik, qürurlu xalq kimi, müzəffər xalq kimi yaşayacağıq və bu gün gəldi.

Dövlət başçısı çıxışlarında bildirib ki, Füzuli rayonunda birinci mərhələdə 450, sonrakı mərhələdə 300 evin tikintisi nəzərdə tutulur. Torpaq da yaxşı, münbit torpaqdır. İndi aparılan şum, səpin, əkin o məqsədi güdür ki, vaxt itirməyək, bu torpağı artıq diriliyə gətirək. Ona görə camaat qayıdandan sonra, əlbəttə ki, yenidən bölgü aparılacaq. Bir də ki, burada həyətyanı torpaqlar da nəzərdə tutulur, mənə məruzə edildi. Kəndlərdə hər bir evin təqribən ən azı 12 sot torpağı olacaq.

Prezidentimizin və birinci xanımın Qarabağa və Şərqi Zəngəzura mayın 5-də səfərində təcavüzkar Ermənistan tərəfindən tamamilə yer üzündən silinən Füzuli şəhərində bir çox həyat əhəmiyyətli layihələrin, o cümlədən içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməli qoyulub. Həmin layihənin icrası nəticəsində 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin içməli su təchizatının yaxşılaşdırılması nəzərdə tutulur. Layihə çərçivəsində 15 subartezian quyusu qazılacaq, uzunluğu 10,7 kilometr olan magistral su kəməri çəkiləcək, tullantı sutəmizləyici qurğu inşa ediləcək, eyni zamanda, ümumi uzunluğu 103 kilometr olan su şəbəkəsi qurulacaq. Bunun üçün birinci mərhələdə 17 min kubmetr tutumu olan su anbarı inşa ediləcək və bu, şəhər əhalisinin təxminən 80 faizini içməli su ilə təmin edəcək. İkinci mərhələdə isə Füzuli şəhərinin əhalisinin qalan 20 faizinə xidmət göstərən, tutumu 5 min kubmetr olan su anbarı inşa ediləcək. Böyük Qayıdışa dair Dövlət Proqramında əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi əsas vəzifə kimi qarşıya qoyulub. Təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulan Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışı keçirilib və mərkəz işə salınıb. Ölkənin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində inşa edilən mərkəzin elektrik təchizatı üçün 110/35/10 kV-luq "Füzuli" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib.

Füzuli şəhərinin Baş Planı təsdiq edildikdən sonra burada aparılan işlərin sürəti artıb, bir çox layihələr icra edilib, hazırda yol infrastrukturunun qurulması və şəhərsalma davam etdirilir. Şəhərin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak edən dövlətimizin başçısına məlumat verilib ki, şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. İlkin mərhələdə 18,5 kilometr yolun tikintisi aparılacaq. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metr olacaq.

Özbək xalqı adından hədiyyə olaraq Füzuli şəhərində inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işləri bu ilin dekabrında başa çatdırılacaq. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılacaq. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Avtomobil yolunun açılışında iştirak edən dövlətimizin başçısı yolun texniki göstəriciləri ilə tanış olub. Bildirilib ki, ümumi uzunluğu 12,3 kilometr olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcı "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir.

İşğaldan azad edilən torpaqlarda ikinci "ağıllı kənd" Füzuli rayonunun Dövlətyarlı kəndində salınır. Xatırladaq ki, kəndin təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətyarlı kəndində üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Kənddə məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq və bazar inşa ediləcək. Ən əsası isə kənd sakinlərinin məşğulluğunun təmin edilməsinə xüsusi diqqət yetirilir.

Mayın 5-də Prezident İlham Əliyev tərəfindən daha iki kəndin - Dədəli və Pirəhmədli kəndlərinin təməli qoyulub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov deyir ki, kəndlərin ümumi ərazisi müvafiq olaraq 314 və 178 hektar olacaq. Dədəli kəndində 1 050, Pirəhmədli kəndində isə 565 fərdi yaşayış evi tikiləcək. Qeyd edək ki, hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Birinci mərhələ üzrə iki kənddə 607 ev inşa olunacaq. Kəndlərdə sosial infrastruktur layihələri - məktəb, bağça, idman klubu, tibb mərkəzi, bazar, məscid, ticarət obyektləri də inşa olunacaq. Bu yaşayış məntəqələrində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kəndlərdə tikinti işləri 2025-ci il ərzində başa çatdırılacaq.

Füzuli şəhərində inşası aparılan yaşayış kompleksinin ümumi sahəsi 8.9 hektardır və burada 38 bina tikilir. 4, 5, 6 və 7 mərtəbəli binalardan ibarət olan yaşayış kompleksində ümumilikdə 846 mənzil olacaq. 2023-cü ilin sonunadək kompleksin təhvil verilməsi nəzərdə tutulub. Kompleksdə yerləşən bütün mənzillər tam təmirli olacaq. Mətbəx mebeli, qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Eyni zamanda binalarda lift quraşdırılacaq, həmçinin mərkəzləşdirilmiş qazanxana sistemi vasitəsilə istiliklə təmin ediləcək. Yaşayış kompleksinin ərazisində binalarla yanaşı, yeraltı və yerüstü dayanacaqlar, sosial məişət obyektləri, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək. Doğma yurd yerlərinə qayıdacaq şəhər əhalisi müasir, milli koloritli, tarixlə müasirliyin qovuşduğu bir şəhərdə yaşayacaqlar.

Füzuli şəhərində yenidənqurma işləri elə bir səviyyədə həyata keçirilir ki, həm dayanıqlı, həm də düşmənə gözdağı olsun. Azərbaycan Prezidenti İlham Əliyevin təməlini qoyduğu, şəhərsalmanın yeni modelinin tətbiq edildiyi qədim yurd yerimiz Füzuli regionun gözəl şəhərlərindən birinə çevriləcək. Bu amal uğrunda Füzulidə yeni və müasir infrastruktur qurulur. Yaşayış binaları inşa olunur, məktəblər, xəstəxanalar və digər xidmət obyektləri tikilir, özü də sürətlə, doğma yurda məhəbbətlə.










**Salman ALIOĞLU,**
**"Respublika".**